# GÜRCÜSTAN

SAYI 53-54 (13.423)

CÜMƏ 11 İYUL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İRAKLİ KOBAXİDZE: "GÜRCÜ CƏMİYYƏTİ ƏN YAXŞI QİYMƏTİNİ VERİB"



**Hazırda gürcü cəmiyyətinin siyasi proseslərə və siyasi subyektlərə münasibəti açıq görünür və bunun nəticəsi olaraq müxalifət tamamilə məhv olub.**

Bu sözləri İrakli Kobaxidze deyib.

O, bu barədə "İmedi" televiziya kanalının efirində, ATƏT-in Parlament Assambleyasında qəbul olunan qətnaməyə dair verilən sualı cavablandırarkən danışıb.

Kobaxidzenin sözlərinə görə, "xarici bürokratların" qiymətləndirmələrindən asılı olmayaraq, əsas məsələ Gürcüstanda gerçək vəziyyətin necə olduğudur və bunu ən yaxşı gürcü cəmiyyəti görür.

*"Müxtəlif vaxtlarda debatlar, polemikalar, fərqli, o cümlədən tənqidi rəylər olur. Biz buna alışmışıq. Bizim üçün əsas məsələ odur ki, ölkəmizdə nə baş verir və bunu ən yaxşı görən gürcü cəmiyyətidir. Məhz gürcü cəmiyyətinin reaksiyası bizim üçün birinci dərəcəli əhəmiyyət daşıyır.*

*Bu gün hər kəs açıq-aydın görür ki, gürcü cəmiyyətinin siyasi proseslərə və siyasi subyektlərə münasibəti necədir. Cəmiyyətin mövqeyinin ifadəsi odur ki, müxalifət tamamilə məhv olub. Müxalifətin özünü məhv etməsinin əsas səbəbi cəmiyyətin ona olan dəstəyini itirməsidir. Əsl qiyməti cəmiyyətin özü verir.*

*Beynəlxalq tərəfdaşlara, xarici siyasətçilərə, bürokratlara gəldikdə, onların müxtəlif qiymətləndirmələri ola bilər. Amma bizim üçün əsas məsələ odur ki, ölkəmizdə hansı reallıq formalaşıb.*

*Reallıq budur ki, Gürcüstanda artıq formalaşmış demokratik sistem var. Kimlərsə bu demokratik sistemi kobud şəkildə pozmağa çalışırdı, amma dövlət özünü yüksək səviyyədə göstərdi və bütün çağırışlara cavab verdi.*

*Dörd il ərzində xaricdən idarə olunan dörd inqilab cəhdi oldu. Hər şey xaricdən idarə olunurdu. Amma gürcü cəmiyyəti özünü yüksək səviyyədə göstərdi və ölkəsinin müstəqilliyini, suverenliyini qorudu",* – deyə Baş nazir İ. Kobaxidze vurğulayıb.

## GÜRCÜSTAN VƏ ÖZBƏKİSTAN ORTA DƏHLİZ ÜZRƏ QARŞILIQLI FƏALİYYƏTİ MÜZAKİRƏ EDİB



***Gürcüstan və Özbəkistan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM və ya Orta Dəhliz) potensialının tam açılmasının vacibliyini qeyd edir.***

Bu məsələ Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə Özbəkistan xarici işlər naziri Baxtiyor Saidov arasında keçirilən görüşdə müzakirə olunub.

*"Özbəkistan xarici işlər naziri Baxtiyor Saidovu Gürcüstan parlamentində qəbul etməkdən məmnunam. İki ölkə arasında, xüsusilə parlament səviyyəsində artan əlaqələri müzakirə etdik. Orta Dəhlizin potensialının reallaşdırılması və Mərkəzi Asiya ilə əlaqələrin yaxşılaşdırılması üçün nəqliyyat sahəsində əməkdaşlığın vacibliyini vurğuladıq. Mədəni və təhsil mübadiləsi vasitəsilə insanlar arasında əlaqələri gücləndirməyə hazır olduğumuzu ifadə etdik",* - deyə Ş. Papuaşvili "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib

## AZƏRBAYCANDA YAŞAYAN GÜRCÜSTAN VƏTƏNDAŞLARININ NƏZƏRİNƏ!

***Azərbaycan Dövlət Miqrasiya Xidməti (DMX) Azərbaycanda müvəqqəti olma müddəti uzadılmış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müraciət edib.***



Bu barədə Xidmətdən məlumat verilib.

Qeyd edilib ki, 24 mart 2020-ci il tarixindən Azərbaycanda olan və COVİD-19 pandemiyası ilə əlaqədar ölkəni tərk edə bilmədiyi üçün Dövlət Miqrasiya Xidməti tərəfindən müvəqqəti olma müddəti uzadılan və ölkədə olmaları qanuni hesab edilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iyulun 31-dək Miqrasiya Məcəlləsinin 45-ci maddəsində göstərilən əsaslardan biri olduğu təqdirdə, müvəqqəti yaşama icazəsinin alınması üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etməli və ya ölkə ərazisini tərk etməlidirlər.

## A. MİRZOYAN: "AZƏRBAYCANLA SÜLH SAZİŞİNİ İMZALAMAĞA HAZIRIQ"



***Azərbaycanla indi sülh sazişini imzalamağa və daha sonra ratifikasiya etməyə hazırıq.***

Bunu Çinin Mərkəzi telekanalına (CGTN) müsahibəsində Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan bildirib.

*"Biz regionumuzda sülhlə maraqlanırıq. Müasir tarixdə, son bir neçə il ərzində müharibə yaşamış bir ölkə kimi yalnız sərhədlərimizdə deyil, daha geniş bölgələrdə və dünyada da sülhün bərqərar olmasında maraqlıyıq. Bu mənada başa düşdüyümüz qədərilə bizim yanaşmalarımız Çin yanaşmalarına çox yaxındır. Bizim bir sülh gündəmimiz var və bu, Ermənistan Respublikasının əsas prioritetlərindən biridir. Azərbaycanla danışıqlar aparırıq. Sülh sazişi layihəsi üzrə razılığa gəlmişik. İndi bu sülh sazişini imzalamağa və sonra ratifikasiya etməyə hazırıq",* - deyə XİN rəhbəri bildirib.

A. Mirzoyan Ermənistanın Türkiyə ilə də münasibətlərin normallaşmasında maraqlı olduğunu vurğulayıb.

*"Həmçinin, qərb qonşumuz Türkiyə ilə münasibətlərimizi normallaşdırmağa çalışırıq",*- deyə o bildirib.

Qeyd edək ki, bu ilin mart ayında Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov XII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə açıqlamasında sülh sazişinin mətni ilə bağlı danışıqlar prosesinin artıq yekunlaşdığını deyib.

*"Yəni biz bir neçə dəfə məlumat vermişdik ki, son iki maddə qalıb və yaxın günlərdə Ermənistan tərəfi iki açıq madda üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul etdiyini bizə əlaqə kanalları vasitəsilə çatdırıb. Buna görə mətn üzrə işlərin yekunlaşdırılmasını biz qeyd edə bilərik",* - deyə o bildirib.

## GÜRCÜSTANDA BU İL BUĞDA MƏHSULU 200 000 TONA ÇATACAQ

***Gürcüstanda buğda biçini aktiv fazaya keçib və 2025-ci il üçün proqnozlaşdırılan ümumi məhsul həcmi 200 000 ton təşkil edəcək.***



Bu barədə Gürcüstan Buğda və Un İstehsalçıları Assosiasiyasının icraçı direktoru Levan Silaqava mətbuat konfransında məlumat verib.

Onun sözlərinə görə, bu rəqəm ötən illə müqayisədə bir qədər çoxdur və həm ərzaqlıq, həm də qeyri-ərzaqlıq buğdanı əhatə edir. Lakin Silaqava bildirib ki, havaların yağışlı keçməsi səbəbindən biçin işləri planlı tempdə aparılmayıb və gecikmələr yaşanıb. Bu səbəbdən bir hissə buğdanın keyfiyyəti də pisləşib və ərzaqlıq kateqoriyadan çıxaraq qeyri - ərzaqlıq kateqoriyaya keçib.

*"Reallıq budur ki, proqnozlaşdırılan ümumi məhsul həcmi 200 000 tondur ki, bu da ötən illə müqayisədə bir qədər yüksəkdir. Amma hava şəraiti məhsul yığımını çətinləşdirdi, yağışlar plana mane oldu və buğdanın keyfiyyət göstəricilərində də problemlər yarandı",* – deyə Silaqava bildirib.

Qiymətlərə gəldikdə isə, Assosiasiyanın rəhbəri qeyd edib ki, ötən il ərzaqlıq buğdanın 1 kiloqramının start qiyməti təxminən 60 tetri idisə, hazırda un kombinatlarına təhvil verilən buğdanın qiyməti 65–70 tetri arasında dəyişir.

*"Hazırda maksimum qiymət 70 tetri, aşağı hədd isə 65 tetri təşkil edir",* – deyə Levan Silaqava mətbuat klubunda qeyd edib.

## TBİLİSİDƏ MƏNZİL ALAN ƏCNƏBİLƏR ARASINDA İSRAİL VƏTƏNDAŞLARI ÇOXLUQ TƏŞKİL EDİR



***2025-ci ilin ilk 5 ayında ümumi mənzil alışlarında İsrail vətəndaşlarının payı 11% təşkil edib.***

Bu barədə "Galt & Taggart" araşdırma platforması Tbilisidəki yaşayış üçün daşınmaz əmlak bazarına dair icmalında qeyd olunub.

Qeyd olunub ki, bu ilin iyun ayında sistemli inşaat şirkətləri arasında sorğu keçirilib. Sorğu Tbilisidə 135-dən çox yaşayış layihəsini (ümumi ilkin bazarın təxminən 45%-ni) əhatə edib. Tədqiqat göstərir ki, son 5 ayda satılan mənzillərin 77%-i Gürcüstan vətəndaşlarının payına düşüb.

Bununla yanaşı, Tbilisidə əcnəbilər arasında ən çox mənzil alanlar İsrail (11%) və Rusiya (2%) vətəndaşları olub.

HUMANİZM

## VAHİD MİLLİ İMTAHANLARDA 36 MƏHKUM İŞTİRAK EDİB

***Bu il keçirilən Vahid Milli İmtahanlarda 36 məhkum iştirak edib.***

Bu barədə Xüsusi Penitensiar Xidmət məlumat yayıb.

Bildirilir ki, məhkumların ali təhsil almaq imkanlarının təmin edilməsi Xüsusi Penitensiar Xidmətin fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Penitensiar sistemdə ali təhsilin davam etdirilməsi üçün bütün zəruri şərait, o cümlədən tədris materiallarından və zəruri texnoloji vasitələrdən istifadə etmək imkanı yaradılıb.

Məhkum tələbələrə distant rejimdə tədris prosesinə cəlb olunaraq tam hüquqlu ali təhsil almağa imkan verən sistemdə "Rəqəmsal Universitet" uğurla fəaliyyət göstərir.



MƏNƏVİYYAT

## MARNEULİDƏ İZDİHAMLI "TASUA" YÜRÜŞÜ BAŞ TUTUB



***Hər il olduğu kimi, bu il də Marneulidə fəaliyyət göstərən dini təşkilatlar və məscidlərin birgə təşkilatçılığı ilə izdihamlı "Tasua" mərasimi keçirilib.***

Minlərlə insanın iştirakı ilə mərasim Əhli-Beyt (ə) cəmiyyətinin önündən başlayıb.

Dini və ictimai xadimlərin, inanclı müsəlmanların geniş iştirakı ilə baş tutan yürüşdə mərsiyələr oxunub və İslami şüarlar səslənib.

"Tasua" mərasiminin əsas şuarı "KƏRBƏLA QİYAMI – ZÜLMƏ QARŞI MÜQAVİMƏT VƏ MÜBARİZƏ MƏKTƏBİDİR!" olub.

İmam Əli (ə) məscidində başa çatan yürüşün sonunda İmamcümə Hacı Hacıyev çıxış edərək İmam Hüseynin (ə) qiyamının hədəflərindən və qurulan mərasimlərin əzəmətindən danışıb.

"Tasua" yürüşündən sonra yürüş iştirakçılarına İmam Hüseyn (ə) adına ehsanlar paylanılıb.

STATİSTİKA

## GÜRCÜSTANIN ƏN BÖYÜK ŞƏHƏR VƏ RAYONLARININ SİYAHISI AÇIQLANIB...

***Əhalinin siyahıyaalınmasının nəticələrinə əsasən, 2024-cü ildə Gürcüstan əhalisi 3 milyon, 914 min nəfər olaraq qeydə alınıb.***

Bu barədə Dövlət Statistika Komitəsinin məlumatında bildirilir.

2014-cü ilin ümumi siyahıyaalınması ilə müqayisədə 2024-cü ildə əhalinin sayının 3 713 804 nəfərdən 3 914 000 nəfərədək artdığı bildirilir.

Statistikaya əsasən, əhali sayına görə ölkənin ən böyük 10 şəhəri aşağıdakılardır:

- Tbilisi - 1 285 260 nəfər;
- Batumi - 234 642 nəfər;
- Kutaisi - 161 237 nəfər;
- Rustavi - 131 815 nəfər;
- Zuqdidi - 57 984 nəfər;
- Poti - 38 802 nəfər;
- Kobuleti - 26 871 nəfər;



- Ozurqeti - 24 527 nəfər;
- Samtredia - 23 235 nəfər;
- Marneuli - 22 655 nəfər.

Bələdiyyə [rayon] əhalisinə gəlincə, ölkə üzrə əhali sayı 100 000 nəfərdən artıq olan sadəcə üç rayon mövcuddur ki, bunlar da Qori, Marneuli və Zuqdididir.

Əhali sayına görə [Bələdiyyə mərkəzi və kənd əhalisi daxil olmaqla] ölkə üzrə ən böyük 10 bələdiyyə [rayon] aşağıdakıdır:

- Qori bələdiyyəsi - 121 535 nəfər;
- Marneuli bələdiyyəsi - 114 043 nəfər;
- Zuqdidi bələdiyyəsi - 108 626 nəfər;
- Qardabani bələdiyyəsi - 83 173 nəfər;
- Kobuleti bələdiyyəsi - 73 088 nəfər;
- Ozurqeti bələdiyyəsi - 57 615 nəfər;
- Telavi bələdiyyəsi - 56 703 nəfər;
- Mtsxeta bələdiyyəsi - 56 500 nəfər;
- Zestafoni bələdiyyəsi - 54 194 nəfər;
- Bolnisi bələdiyyəsi - 53 209 nəfər.

Ölkənin azərbaycanlı icmasının kompakt yaşadığı digər bələdiyyələrə gəlincə, Dmanisidə əhali sayı 19 006, Saqarecoda - 50 286 nəfər, Laoqdexidə isə 39 188 nəfər olaraq qeydə alınıb.

Məlumat üçün bildirək ki, ölkə əhalisinin etnik və dini tərkibinə dair məlumatlar 2026-ci ildə açıqlanacaq.

**Foto E.Şahvələdindir.**

## GÜRCÜSTANDA 6 AY ƏRZİNDƏ 2 415 SÜRÜCÜ CƏRİMƏLƏNİB




***2025-ci ilin 1 iyunundan 30 iyun tarixinə qədər nəqliyyat vasitələrinin emissiyalarının müəyyən olunmuş norma ilə uyğunsuzluğuna dair 475 fakt aşkarlanıb.***

Bu barədə məlumatı Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Ətraf Mühitin Mühafizəsinə Nəzarət Departamenti yayıb.

Departamentin məlumatına əsasən, ən çox qanun pozuntusu Tbilisidə (215 hal) qeydə alınıb. Kutaisidə 99, Batumidə 91 və Rustavidə 70 hal aşkarlanıb.

*"475 hüquq pozuntusundan 415-ni fiziki şəxslər tərəfindən törədilib, 60 halda isə Ətraf Mühitin Mühafizəsinə Nəzarət Departamentinin əməkdaşları hüquqi şəxsləri cərimələyib. Qeyd etmək lazımdır ki, 270 hüquq pozuntusu minik avtomobillərinin, 185-i mikroavtobusların, 19-u yük avtomobillərinin, 1-i isə avtobus sürücüləri və ya sahibləri tərəfindən törədilib,"* – deyə departamentin məlumatında bildirilir.

## RUSİYADA XARİCİ VƏTƏNDAŞLARIN ORDUDA XİDMƏT KEÇMƏSİNƏ İCAZƏ VERƏN QANUN QÜVVƏYƏ MİNİB

***Rusiyada Silahlı Qüvvələrin komplektləşdirilmə sistemini sadələşdirən qanun qüvvəyə minib. Sənədə əsasən, Rusiya Müdafiə Nazirliyi ilə müqavilə əsasında xidmətə indi əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də qəbul oluna bilərlər.***

Bu barədə Rusiya KİV-ə istinadən xəbər verir.

Rusiya Silahlı Qüvvələrində xidmət etmək üçün Müdafiə Nazirliyi ilə müqavilə bağlamaq hüququ bundan sonra vətəndaşlığı olmayan şəxslərə də şamil edilir.

Qanun "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Müdafiə haqqında" və "Hərbçilərin statusu haqqında" qanunlar da daxil olmaqla, bir neçə normativ sənədə dəyişikliklər edir.

Sənədə görə, Müdafiə Nazirliyi vətəndaşlığı olmayan şəxslərlə və əcnəbi vətəndaşlarla müqavilələri hərbi səfərbərlik dövrü başa çatana, hərbi vəziyyət ləğv edilənə və ya hərbi vaxt sona çatanadək bağlaya bilər.

## Sitat guşəsi



"Gördük ki, yekun mətndə Co Uilsonun israrı ilə yarım cümlə yer aldı ki, bu da seçkilərə və zoraki aksiyada saxlanılan şəxslərə aiddir. Bu göstərir ki, ATƏT-in Parlament Assambleyası belə hallarda siyasi intriqaların alətinə çevrilir. Bizim üçün əsas ATƏT-in Baş katibinin ifadə etdiyi mövqedir. Təəssüflə qeyd etməliyəm ki, həmin əlavənin həmmüəlliflərindən biri də Ukraynanın nümayəndə heyəti idi".

**Şalva Papuaşvili,**
**Gürcüstan Parlamentinin sədri.**



"Bizim Putinlə söhbətimiz oldu. Kifayət qədər uzun söhbət zamanı biz İran da daxil olmaqla, bir çox məsələləri müzakirə etdik. Biz həmçinin Ukrayna münaqişəsi barədə danışdıq, mən narazıyam".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"NATO-nun Haaqa sammitində bizim üçün mühüm qərar qəbul edilib. Türkiyə 2026-cı ilin iyulunda NATO dövlət və hökumət başçılarının sammitinə ev sahibliyi edəcək. Alyansın liderlərini paytaxtımız Ankarada qəbul edəcəyik. Çox vacib qərarlar qəbul etmək üçün zəmin hazırlayacağıq".

**R.T. Ərdoğan,**
**Türkiyənin Prezidenti.**



"Onlar (Qərb ölkələri) Rusiyaya qarşı hazırkı siyasəti nə qədər çox davam etdirsələr, vəziyyət onlar üçün bir o qədər pis olacaq."

**Vladimir Putin,**
**Rusiyanın Prezidenti.**



"İkidən bir fərqlə, yeni siyasi partiya istəyirdiniz və olacaq. Ölkəmizin xərclər və rüşvətxorluq üzündən iflasa uğradığı bir vəziyyətdə məlum olur ki, biz demokratiya deyil, birpartiyalı sistemdə yaşayırıq. Bu gün "Amerika Partiyası" azadlığınızı sizə qaytarmaq üçün quruldu".

**İlon Mask,**
**Milyarder.**



"Rusiya ilə Azərbaycan arasında münasibətlərdə müəyyən çətinliklər sülh yolu ilə, hər iki tərəfin maraqları nəzərə alınmaqla və bir-birinə hörmətlə həll oluna bilər. Bölgədə Dağıstanı vətəni hesab edən çox sayda azərbaycanlı yaşayır. Bizim əlaqələrimiz coğrafi əlaqələrdən daha üstündür. Bu, tarix, qohumluq bağları, mədəniyyət, birgə həyatdır.

**Sergey Melikov,**
**Dağıstan Respublikasının rəhbəri.**

## REGİON XƏBƏRLƏRİ

### Tbilisi: AŞURA MƏRASİMİ BAŞ TUTUB



*Gürcüstanın bir çox şəhər və rayonlarında olduğu kimi, paytaxt Tbilisinin Cümə məscidində də Hüseynsevər müsəlmanların iştirakı ilə Aşura mərasimi keçirilib.*

Mərasimə çox sayda insanlar qatılıb.

Mərasimdə Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) şeyxi Hacı Faiq Nəbiyev və digər bir sıra din xadimləri çıxış edərək İmam Hüseynin (ə) Kərbəla faciəsindən çıxarılacaq dərsələrdən və o, həzrətin müsəlmanlara qoyub getdiyi məktəbdən söz açıblar.

Qeyd edək ki, məhərrəm ayının əvvəlindən etibarən axşam namazından sonra təşkil olunan mərasimlərdə Quran və dualar oxunub, söhbətlər edilib, mərsiyələr oxunub və ehsanlar verilib.

### Marneuli: TƏLƏBƏ VƏ ABITURİYENTLƏRLƏ "SƏNƏ QARŞI SƏN: İMTAHAN MASASINDA GÖRÜŞ" ADLI TƏDBİR KEÇİRİLİB

*Marneulidə gənc riyaziyyat müəllimi Elvir Hasanoğlu tələbələr və abituriyentlərlə "Sənə qarşı sən: İmtahan masasında görüş" adlı mühazirə xarakterli tədbir keçirib.*



Görüş, Marneuli Mədəniyyət Evində baş tutub. Görüşdə bir sıra şəhər və kəndlərdən gələn gənclər iştirak ediblər. Gənclər qarşısında çıxış edən Elvir Hasanoğlu imtahan öncəsi ən böyük təhlükə, bilik və daxili sabitlik, özünü aşmağın yolları, mental xəritə, ruhi hazırlıq və digər bir sıra mövzularda mühazirə oxuyub.

### Kaxeti: TEA AXVLEDİANİ YERLİ ƏHALİ İLƏ GÖRÜŞÜB

*Dövlət Naziri Tea Axvlediani Laqodexi, Telavi və Saqareco bələdiyyələrində azərbaycanlıların məskunlaşdığı Gəncəli, Qabal, Qaracalar, Uzuntala, Ləmbəli, Muğanlı, Düzəyrəm və Tüllər kəndlərinin sakinləri ilə görüşərək, onları vətəndaş inteqrasiyası siyasəti çərçivəsində əldə olunan tərəqqi və gələcək planlarla tanış edib.*



Tea Axvlediani bölgə əhalisinin marağına uyğun olaraq səhiyyə və məşğulluq məsələlərinə həsr olunmuş kampaniyanın əsas məqsədləri və yerli sakinlər üçün yaradılan imkanlarla əhalini tanış edib. Nazir, həmçinin vətəndaş inteqrasiyası siyasəti çərçivəsində əldə olunan irəliləyişlər barədə danışıb, gələcək planlara diqqət çəkib.

*"Kaxeti regionundakı məlumatlandırma kampaniyamız davam edir, kampaniya çərçivəsində Saqareco Bələdiyyəsində də yerli əhali ilə işgüzar və çox isti atmosferdə görüş keçirilib. Azərbaycanlı vətəndaşlarımız görüşdə müzakirə olunan bütün aktual məsələlərə yüksək maraq göstəriblər. Həmçinin etnik mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın dövlətin təqdim etdiyi dəstək imkanlarından bərabər və maneəsiz yararlanması üçün vahid hökumət yanaşması ilə həyata keçirdiyimiz səylər qeyd olunub. Yerli əhalinin mərkəzi və yerli hökumət orqanlarının nümayəndələri ilə birbaşa ünsiyyətə verdiyi önəm, onlar üçün vacib olan məsələlərin müzakirəsi və ehtiyaclarına cavab verməsi üçün də vurğulanıb"*, - deyə Tea Axvlediani bəyan edib.

Görüşlərdə Kaxeti regionu üzrə dövlət müvəkkili Qiorqi Aladaşvili, Laqodexi, Telavi və Saqareco bələdiyyələrinin merləri Condo Mdivanaşvili, Levan Andriaşvili və Avtandil Qulikaşvili, və digər rəsmi şəxslər iştirak və çıxış ediblər.

Dövlət Naziri Aparatının rəhbərliyi və koordinasiyası, regionun yerli hökumət orqanları ilə sıx əməkdaşlıq və dövlət qurumlarının nümayəndələrinin bilavasitə iştirakı ilə Kaxeti üzrə dövlət proqramları və xidmətləri üzrə çoxkomponentli məlumat kampaniyası aparılacaq.

### Telavi: "MUSİQİLİ YAY - 2025" ADLI KONSERT TƏŞKİL OLUNUB

*Telavidəki Batoni qalasında "Musiqili yay - 2025" adlı konsert keçirilib.*

Tədbir Gürcüstan Mədəniyyət Nazirliyinin nəzdindəki "Kreativ Gürcüstan" təşkilatının və Telavi Bələdiyyəsinin dəstəyi ilə keçirilib.

Bakur Bakuradzenin rejissorluğu ilə baş tutan konsertdə Lisa Baqrationi, Açiko Nijaradze, Kote Kipiani, Qiorqi Lapaçişvili, "Şvidkatsa" ansamblı, maestro Nika Nikaşvilinin rəhbərlik etdiyi orkestr, Levan Deisadze, Zaza Tsertsvadze və Dito Sakandelidze, aparıcılar Eko Panqani və Laşa Tsiplaşvili iştirak ediblər.

Tədbirdə Telavi Bələdiyyəsinin meri Levan Andriaşvili, Gürcüstan Mədəniyyət Nazirliyinin Mədəni İnkişaf və Təbliğ Departamentinin rəhbəri Tata Svanidze, Şəhər Şurasının sədri Tengiz Mtvarelişvili, merlərin müavinləri Nikoloz Metreveli, Pikria Kuşitaşvili, eləcə də yerli hakimiyyət orqanlarının nümayəndələri iştirak ediblər.



## BEYNƏLXALQ HƏYAT

### M. PEZEŞKİAN: "İRAN AZƏRBAYCANINDA İNSANLARIN ANA DİLİ TÜRKCƏDİR, ETNİK MƏNSUBİYYƏTİ TÜRKDÜR"



***"Bizim ana dilimizdə təhsillə bağlı problemimiz var. Bunu danmaq düzgün deyil. İran Azərbaycanında özünü türk adlandıranlara xor baxmaq olmaz. Bu insanların ana dili türkcədir, etnik mənsubiyyəti türkdür".***

Bunu İran Prezidenti Məsud Pezeşkian deyib.

*"Özlərinə başqa heç nə deyə bilməzlər, uydurma adlar isə qəbuledilməzdir. Onların ana dilində təhsili İranın həm milli, həm də beynəlxalq öhdəliyidir. İranın ayrılmaz bir parçası olan milyonlarla türkün ana dili olduğu üçün türkcə təhsil məsələsinə xüsusi yanaşmalıyıq.*

*Şəhriyarın danışdığı və yazdığı dil türkcədir, bu dildə şeir deyəndə əsəbiləşmək məntiqsizdir. Şəhriyar İran tarixinin ən parlaq simasıdır.*

*Ümumiyyətlə, türk, ərəb və bütün digər dillər İranın ayrılmaz sərvətidir. Son 12 günlük müharibə göstərdi ki, İranın milli sərvəti onun milli birliyidir. Ona görə də xalqın özünüifadəsi onun təbii haqqıdır"*, - deyə o vurğulayıb.

### D. TRAMP: "MASKIN AĞLINI İTİRMƏSİNİ GÖRMƏK MƏNİ KƏDƏRLƏNDİRİR"



***ABŞ prezidenti Donald Tramp iş adamı İlon Maskın "ağlını itirməsini" müşahidə etməkdən kədərləndiyini bildirib.***

Prezident "Truth Social" platformasında Maskın "Amerika" partiyasını yaratmaq planlarını şərh edib.

*"İlon Maskın son beş həftə ərzində tamamilə ağlını itirərək gəzən fəlakətə çevrilməsini müşahidə etmək məni kədərləndirir"*, - deyə o bildirib.

Tramp qeyd edib ki, ABŞ-da üçüncü siyasi partiya heç vaxt uğur qazanmayıb, lakin bu fakta baxmayaraq, Maskı bu addımı atmaq istəyir: *"Sistem bunun üçün nəzərdə tutulmayıb. Belə siyasi qüvvələr nifaq və xaos yaradır".*

### RUSİYANIN HAVA LİMANLARINDA YÜZLƏRLƏ AVİAREYS LƏĞV EDİLİB

***Rusiyanın Nəqliyyat Nazirliyi və "Rosaviatsiya"nın məlumatına görə, bazar günü ölkə üzrə azı 393 aviareys ləğv edilib və ya təxirə salınıb.***



Bu barədə "Deutsche Welle" məlumat yayıb.

Rəsmi açıqlamada qeyd olunur ki, bu qərarın səbəbi uçuşların təhlükəsizliyinin təmin edilməsi olub.

Məhdudiyyətlər Moskvadakı Şeremetyevo hava limanına, Sankt-Peterburqdakı Pulkovo hava limanına və Nijni Novqoroddakı Çkalov hava limanına təsir edib. Bundan əlavə, İvanovo, Kaluqa, Pskov, Tambov və Yaroslavl hava limanlarında da reyslərin qəbulu müvəqqəti dayandırılıb.

"Rosaviatsiya"nın məlumatına görə, Şeremetyevo hava limanında 171 reys ləğv edilib, 56 reys isə iki saatdan çox müddətə gecikib. Pulkovo hava limanında 90 reys ləğv olunub və 37 reys təxirə salınıb. Çkalov hava limanında 26 reys ləğv edilib, 13 reys gecikib. Ən uzunmüddətli məhdudiyyətlər Nijni Novqorodda tətbiq edilib.

Qeyd edək ki, bir gün əvvəl – 5 iyulda, yalnız Şeremetyevo, Pulkovo və Çkalov hava limanlarında 250-dən çox aviareys ləğv olunmuş, 270-dən çox reys isə təxirə salınmışdı. "Kommersant" nəşrinin ekspert rəylərinə əsaslanaraq yaydığı məlumata görə, Rusiyada baş verən iki günlük hava nəqliyyatı kollapsı aviaşirkətlərə təxminən 20 milyard rubl zərər vura bilər.

### KİV: İSRAİL İLƏ HƏMAS ARASINDAKI DANIŞIQLARIN İLK RAUNDU NƏTİCƏSİZ BAŞA ÇATIB

***İsrail ilə HƏMAS hərəkatı arasında Qəzza zolağında atəşkəsin əldə olunması ilə bağlı dolayı danışıqların ilk raundu nəticəsiz başa çatıb.***



Bu barədə "Sky News Arabia" telekanalı məsləhətləşmələrin gedişatı ilə tanış olan fələstinli rəsmilərə istinadən xəbər verib.

İsrail və HƏMAS nümayəndələrinin iştirakı ilə danışıqlar iyulun 6-da axşam saatlarında Qətərin paytaxtı Dohada baş tutub.

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*7 iyul 2025-ci il* **“SAKARTVELOS RESPUBLİKA”**

### Doni Pançulidzeyə ürəkdən təşəkkür

Domenti (Doni) Pançulidze bir sıra kitabın müəllifidir. O müdafiə və silahlı qüvvələrin veteranı və ehtiyatda olan polis polkovnikidir. O “Əfqanıstan və Digər Müharibələr Veteranlarına Beynəlxalq Yardım Fondu”nun mətbuat xidmətinin rəhbəri, Gürcüstan Hərb Tarixi Cəmiyyətinin Məsləhət Şurasının üzvü, Pançulidzelər ailəsinin başçısıdır.

Yazıçı və publisist bu yaxınlarda işıq üzü görən “Şam kimi əriyən ömür” adlı kitabında güc strukturları işçilərinin vətəninə həsr olunmuş iş və həyat hekayələrini böyük insanpərvərliklə, sevgi və qərəzsizliklə əks etdirib. Sizə məmnuniyyətlə bildirmək istəyirəm ki, cənab Doninin belə hərarətlə xatırladığı insanlar arasında mənim atam, ehtiyatdakı polkovnik Vladimir Dolidze də var.

Kitabda bu qədər xoş xatırlanan çoxlu insanlarla yanaşı, belə isti sözlərə görə cənab Doniyə təşəkkür etmək istərdim. Siz zəmanəmizin əsl salnaməçisisiniz, cənab Doni, buna görə sizə bir daha təşəkkür edirəm.

**Malxaz Dolidze,**
**Texniki elmlər doktoru, professor.**
**Gürcüstan Texniki Universitetinin**
**aqromühəndislik departamentinin rəhbəri,**
**“Şərəf” ordeni laureatı.**

### Gürcüstan “FİDE”nin qadınlararası şahmat Dünya Kubokuna ev sahibliyi edir

Gürcüstan tarixində ilk dəfə “FİDE”nin Qadınlararası Dünya Kubokuna ev sahibliyi edir. Şahmat üzrə beynəlxalq turnir Batumidə keçirilir.

Yarış 29 iyula qədər keçiriləcək. Açılış mərasimi Batumi Dram Teatrında keçirilib. Mərasimdə “FİDE” nümayəndələri, dəvət edilmiş qonaqlar və şahmatçılar iştirak ediblər. Turnirdə 46 ölkədən 107 idmançı iştirak edir.

6 iyuldan müsabiqəyə gürcü şahmatçılar Nana Dzaqnidze, Nino Batsiaşvili, Meri Arabidze, Lela Cavaxişvili, Bela Xotenaçvili, Anastasia Kirtadze və Kesaria Mqeladze də qatılıblar.

*3 iyul 2025-ci il* **“REZONANS”**

### Gürcüstanda ali təhsil problemləri (ixtisarla)

Hər il on minlərlə abituriyentin milli imtahanda iştirak etməsinə baxmayaraq, müəyyən ixtisaslar üzrə çatışmazlıq hələ də qalmaqdadır. Bu onunla əlaqədardır ki, abituriyentlərin əksəriyyəti əsasən eyni ixtisaslara, məsələn, biznesin idarə edilməsi, hüquq, jurnalistika və s. yönəlirlər. Bu zaman ölkədə iqtisadiyyatın hərəkətverici qüvvəsi olmalı, sərvət yaratmalı olan ixtisaslar maraqdan kənarda qalır. Bu, geologiya, energetika, baytarlıq, aqronomluq, mühəndislik və bənzər sahələrə aiddir. Müvafiq olaraq, mütəxəssislər diqqətlərini kadr çatışmazlığı probleminə yönəldir və vəziyyətin düzəldilməsinin zəruri olduğunu bildirirlər.

Akademik Zurab Vaxania “Rezonans”a verdiyi müsahibə çərçivəsində ali təhsillə əlaqəli bir sıra problemə toxunub. O bildirib ki, ali təhsil sistemi Gürcüstanın iş bazarına uyğun deyil və nəticədə ali təhsil müəssəsələrindən məzun olanlar iş tapa bilmirlər.

Təhsil eksperti Muxran Quliaşvili hesab edir ki, zərərli stereotiplərdən qurtulmaq lazımdır. Buna nail olmaq üçün orta məktəblər transformasiya edilməlidir və təhsil prosesi çərçivəsində yeniyetmə şagirdlər öz potensiallarını bir çox cəhətdən görməlidirlər.

"Düşünürəm ki, bu problem məktəbin funksiyasını düzgün dərk etməməkdən irəli gəlir. Əslində, məktəbin funksiyası insanların təbii istedadlarını üzə çıxarmaqda kömək etməkdir. Əsas odur ki, onlar nəyi bacarırlar. İmtahandan keçmək üçün konkret fəndən intensiv oxumaq lazım deyil və s.", - deyə Muxran Quliaşvili bəyan edib.

“Məktəb təhsil sistemində əsaslı dəyişiklik vacibdir. Müəllim məktəb mühitində yeniyetməni müşahidə etməli, övladının hansı cəhətlərdə güclü olması barədə valideynə məsləhət verməlidir. Valideyn də əlavə pul ödəməməlidir. Hər bir şagirdin öz istedadını üzə çıxarmaq imkanı olmalıdır və valideyn vəsaitindən asılı olmamalıdır. Əgər bu problem həll olunarsa, o zaman məşhur peşələrin dalınca qaçmaq lazım gəlməz.

Bu qədər diplomat, biznes mütəxəssisi, hüquqşünas və s. kimə lazımdır? Hər il tutaq ki, 5 min hüquqşünas bitirir. Bizdə bu qədər şirkət var ki, onları bir-bir işə götürsünlər? Bu, absurddur. Təəssüf ki, hər şey bir-birinin ardınca gedir. Bu gənclər də vaxt itirirlər", - deyə ekspert bildirib.

Onun fikrincə, ali təhsil almaq pis deyil, amma praktiki yanaşmamız olsaydı, daha çox insan ölkəyə xeyir verərdi.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

• Hikmət Hacıyev bildirib ki, Azərbaycanın siyasəti tərəfdaşlıq modelləri tapmaq və qonşu dövlətlərlə yaxşı münasibətlər qurmaqdır. O qeyd edib ki, Bakı ilə Moskva arasında normal münasibətlər var.

• Ağ Ev rəhbəri Donald Tramp deyib ki, Tehran danışıqlar üçün Vaşinqtonla görüş tələb edib. İran Xarici İşlər Nazirliyi onun sözlərini təkzib edib.

• Kreml bildirib ki, Rusiya ABŞ prezidenti Trampın Ukraynadakı vəziyyəti həll etmək səylərini yüksək qiymətləndirir. Moskva həmçinin əmindir ki, ölkələr ticarət-iqtisadi əlaqələri yenidən qurmaq potensialına malikdir.

• BMT-nin baş katibi Antonio Quterreş bildirib ki, İranla nüvə proqramı üzrə səmərəli danışıqların bərpasının əsas şərti regionda uzunmüddətli atəşkəs rejiminin yaradılması və ciddi şəkildə riayət olunmasıdır.

•Türkiyənin xarici işlər naziri Hakan Fidan Braziliyada keçirilən BRİKS sammitində iştirakından sonra bildirib ki, Ankara Vaşinqtonun İranın nüvə proqramı üzrə danışıqların bərpası mümkünlüyü ilə bağlı mövqeyini Tehrana çatdırıb.

• Azərbaycan nümayəndə heyəti UNESCO-nun Ümumdünya İrs Komitəsinin 47-ci sessiyasında iştirak edib.

• Özbəkistan sərmayə qoyuluşu və birgə layihələrin inkişafı sahəsində Qətərlə geniş miqyasda əməkdaşlıq etmək niyyətindədir. Dövlət başçısının mətbuat xidməti xəbər verir ki, telefon danışığı zamanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə Qətər Əmiri Təmim bin Həməd Al Tani arasında bu istiqamətdə planlar müzakirə olunub.

• ABŞ prezidenti Donald Tramp Yaponiya və Cənubi Koreya liderlərinə 25 faizlik yeni tarifləri elan edən məktublar göndərib.

**Diplomatiya**

• Özbəkistan Xarici İşlər Nazirliyinin rəhbəri Baxtiyor Saidovun başçılıq etdiyi nümayəndə heyəti Gürcüstana ikigünlük rəsmi səfərə gəlib.

•İqtisadiyyat və Davamlı İnkişaf nazirinin müavini İrakli Nadareişvili Çin Xalq Respublikasının Mülki Aviasiya Administrasiyasının nümayəndə heyəti ilə görüşüb.

**Ölkədaxili**

• Beynəlxalq Feldşerlər Günü münasibətilə səhiyyə naziri Mixeil Sarcveladze Fövqəladə Halların Koordinasiyası və Təcili Yardım Mərkəzinin direktoru Nikoloz Çikovani ilə birlikdə Rustavi Rayon Xidmətinin feldşerləri ilə görüşüb, onları peşə günü münasibətilə təbrik edib.

• Mixeil Sarcveladze narkotik siyasəti haqqında: Baş nazir ilk dəfə açıqlama verəndə qeyd etdi ki, dövlət bu məsələyə görə məsuliyyəti öz üzərinə götürür. Hər hansı bir məsuliyyət daşıyan hökumət bunu etməlidir.

• Telekommunikasiya nəhəngi Silknetin sahibi Qiorqi Ramişvili həbsdən azad edilib – məhkəmə onu 70 min lari girov qarşılığında azadlığa buraxıb. Bir gün əvvəl iş adamına qarşı qanunsuz silah saxlama ittihamı irəli sürülüb: Tbilisi hava limanında onun əl yükündən tapança aşkar edilib.

**İqtisadiyyat**

• Qazaxıstan Gürcüstan ərazisindən keçən Bakı-Supsa neft kəmərinə neftin Avropa bazarlarına ixracı üçün perspektivli istiqamətlərdən biri kimi baxır. Bunu Trend-ə müsahibəsində Qazaxıstanın energetika naziri Erlan Akkenjenov deyib.

• Milli Turizm Administrasiyasının Avropadan səyahətçiləri cəlb etmək məqsədi daşıyan marketinq kampaniyası çərçivəsində Paris və Lion küçələrində Gürcüstanı reklam edən onlarla banner peyda olub.

• Gürcüstanda tikinti xərcləri artmaqda davam edir – “Sakstat”.

**Kriminal**

• Tbilisidə polis azyaşlıya qarşı qeyri-insani rəftar və zorakılığa görə 9 nəfəri saxlayıb. Təqsirləndirilən şəxsin evinə baxış zamanı soyuq və pnevmatik silahlar, mobil telefonlar və nasist simvollar tapılıb.

• Batumidə gecə klublarında satış üçün kiloqramlarla narkotik vasitə keçirdən iki Belarusiya vətəndaşı saxlanılıb.

**Mədəniyyət**

• Suxumi Konstantin Qamsaxurdia adına Peşəkar Dövlət Dram Teatrının Dimitri Caiani zalında Gürcüstanın əməkdar artisti, aktrisa Liana Mikaşavidzenin yaradıcılıq gecəsi keçirilib.

• Gürcüstan Mədəniyyət Nazirliyinin məlumatına görə, Dövlət Folklor Mərkəzində Qiorqi Mtatsmindeli adına Xor Universitetinin yekun konserti keçirilib

**Maraqlı**

• Arxeoloqlar Perunun şimalındakı Barranka əyalətində 3500 illik Peniko şəhərini aşkar ediblər.

• Tarixdə ilk dəfə Çində tam avtonom robotların bir-biri ilə yarışdığı futbol üzrə tarixi matç baş tutub.

• Frensis Krik İnstitutu və Liverpul Con Mures Universitetinin tədqiqatçılar qrupu 4500 il əvvəl yaşamış qədim misirlinin tam genomunun ardıcıllığını müəyyən ediblər.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

**Böyürtkən**



Dadlı giləmeyvə olan böyürtkən gülçiçəyikimilər fəsiləsinin moruq cinsinə aid bitkidir. Böyürtkən və moruğun 250-dən çox növü var. Yayğın növləri yapışqanyarpaq böyürtkən, rubus laciniatus, göyümtül böyürtkəndir. Yabanı halda Asiya, Avropa və Amerika qitələrində geniş yayılıb. Böyürtkən meşələrdə, kolların arasında, çay sahilində bitir. Böyürtkən may ayından avqusta qədər çiçəkləyir. Meyvənin çiçəkləri ağ rəngə və olduqca xoş ətrə malikdir. Bitkinin meyvələri uzunsov formalı və qırmızı, qara, al-qırmızı və sarı rəngli olur.

Böyürtkən müxtəlif xalqların mətbəxində müxtəlif şirniyyatların, mürəbbələrin və kompotların hazırlanmasında istifadə edilir və ya çiy yeyilir.

Böyürtkənin tərkibində çox sayda vitamin və minerallar var, kalori miqdarı olduqca aşağıdır. Meyvənin tərkibində C, A, E, K və B qrupu vitaminləri, kalsium, dəmir, maqnezium, kalium, sink və fosfor kimi elementlər, böyürtkənə tünd bənövşəyi rəng verən və güclü antioksidant təsir göstərən aqntosianinlər, ellag turşusu, flavonoidlər və polifenollar var. Böyürtkənin tərkibindəki digər maddələr lif, fruktoza və qlükoza kimi təbii şəkərlərdir. Meyvə yüksək miqdarda (80–85%-ə qədər) su tərkiblidir.

**Böyürtkən insan organizmi üçün faydalı xüsusiyyətlərə malikdir.** Meyvənin tərkibindəki flavonoidlər, antosianinlər və ellag turşusu kimi güclü antioksidantlar hüceyrələri sərbəst radikallardan qoruyur, xərçəng riskini azaldır, yaşlanmanı ləngidir. Böyürtkən C vitamini ilə zəngin olduğuna görə, orqanizmin müdafiə sistemini gücləndirir, bədənin infeksiyalara qarşı müqavimət qabiliyyətini yüksəldir. Meyvədəki kalsium, maqnezium və K vitamini sümüklərin sağlam inkişafını dəstəkləyir. Böyürtkən yaddaşı gücləndirir və neyrodegenerativ xəstəliklərin (Alzheimer kimi) riskini azaldır.

**Böyürtkənin zərərləri.** Böyürtkən sağlamlıq üçün çox faydalı meyvə olsa da, bəzi hallarda zərərli və ya arzuolunmaz təsirlərə səbəb olur. Xüsusilə həddindən artıq istifadə və bəzi xüsusi sağlamlıq vəziyyətlərində ehtiyatlı olmaq lazımdır. Bəzi insanlarda böyürtkənə qarşı allergiya ola bilər. Bu zaman aşağıdakı əlamətlər müşahidə oluna bilər: dəri səpgiləri və qaşınma; dodaqlarda və ya boğazda şişkinlik; tənəffüs çətinliyi. Belə əlamətlər varsa, istifadə dayandırılmalı və həkimə müraciət olunmalıdır. Meyvənin həddindən artıq istehlakı mədə-bağırsaq narahatlığına səbəb olur. Böyürtkənin şəkəri azdır, lakin püresi, mürəbbəsi və ya kompotu şəkərlə hazırlandıqda qanda şəkərin miqdarını artıra bilər.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏMNİŞİN** *is.* [*fars.*] Bir yerdə oturub-duran, dost, yoldaş, munis.

*Həmnişinin bab elə,*
*Görən desin, ha belə!*

(Ata. sözü).

**HƏMPİYALƏ** *is.* [*fars.*] Biri ilə həmişə bir yerdə içki içən, sərxoşluq edən adam. *Mənimlə daim o kəslər ki, həmpiyalə idi,*
*Nə cam lütf edir indi, nə cam alır məndən.*

Ə. Vahid.

**HƏMRAH** *is.* [*fars.*] Yol yoldaşı, yoldaş. *Həmrah bizlərdə yoldaşa deyirlər.*

"Əmrah".

[Alp Arslan:] *Aydın gözünüz, cümlə səadət bizə həmrah.*

H. Cavid.

**HƏMRAHLIQ** *is. klas.* Yoldaşlıq, yol yoldaşlığı.

*Ey bəxt, vəfasız olma sən həm!*
*Həmrahlıq et, bizimlə bir dəm!*

Füzuli.

**HƏMRAZ** *is.* [*fars.*] *klas.* Sirr yoldaşı, sirdaş.

*Badi-səba, əgər düşsə güzarın,*
*Söylə xəlvət o həmraza bir xəbər.*

M. P. Vaqif.

**HƏMRƏY** *sif.* və *is.* [*fars.* həm və *ər.* rəy] Bir fikirdə, bir rəydə olan; həmfikir, yekdil.

[Əmiraslan ağa:] *Hansınız mənimlə həmrəydir, buyursun, gözüm üstə yeri var.*

S. S. Axundov.

■ **Həmrəy olmaq** – bir rəydə, bir fikirdə olmaq, həmfikir, yekdil olmaq.

*N. Vəzirov yeni komediyaları və "Dərviş" imzalı publisist əsərləri ilə mollanəsrəddinçilərlə həmrəy olduğunu göstərirdi.*

"Əkinçi".

**HƏMRƏYLİK** *is.* Həmfikirlik, yekdillik. *Görüşlərdə həmrəylik. Məsələ barəsində yoldaşlar arasında həmrəylik yoxdur.*

*..Yoldaşlarının həmrəyliyi* [Qəzənfəri] *daha çox sevindirirdi.*

S. Vəliyev.

// Hər hansı bir ictimai hərəkətə və ya fikrə fəal surətdə hüsn-rəğbət göstərmə; fikir, mənafe birliyi. *Əməkçilərin beynəlxalq həmrəyliyi.*

**HƏMSAYƏ** *is.* [*fars.*] *köhn.* Qonşu.

*Dedi: həmsayə, var nəyə meylin,*
*Nə yeyirsən, nə istəyir könlün?*

M. Ə. Sabir.

**HƏMSAZ** *sif.* və *is.* [*fars.*] Bir-birinə uyğun gələn, uyan, münasib olan; uyğun.

■ **Həmsaz olmaq** – uyğun gəlmək.

*Demə ki, yaş ürəklə,*
*Qanacaqla, hünərlə,*
*Həmişə həmsaz olur.*

B. Vahabzadə.

**HƏMSƏFƏR** *is.* [*fars.* həm və *ər.* səfər] Səfər yoldaşı, yol yoldaşı.

**HƏMSƏNƏT** *is.* və *sif.* [*fars.* həm və *ər.* sənət] Sənətləri, peşələri bir olan, sənət yoldaşı, iş yoldaşı.

*Qonşuluq bir yana, axı biz – Qara Canbalayevlə mən, demək olar ki, həmsənət idik.*

İ. Hüseynov.

**HƏMSƏRHƏD** *is.* [*fars.* həm, sər və *ər.* hədd] Ümumi sərhədi olan; qonşu, həmhüdud. *Həmsərhəd ölkələr.*

**HƏMSİN** *sif.* və *is.* [*fars.* həm və *ər.* sinn] Həmyaş, yaşıd, bir yaşda olan. *Fərman və Gövhərtac ikisi bir yerdə böyümüşdülər və həmsin idilər.*

Ə. Haqverdiyev.

**HƏMSİR** *is.* və *sif.* [*fars.* həm və *ər.* sir] Sirdaş. *Həmsir yoldaşlar.*

*Qasım bəy Zakirə gəldikdə, o da Molla Pənah kimi durnalardan xahiş eləyir ki, ondan ehtiyat etməsinlər və onu özlərinə həmsir, yoldaş və rəfiq hesab etsinlər.*

F. Köçərli.

**HƏMSÖHBƏT** *is.* [*fars.* həm və *ər.* söhbət] Birisi ilə söhbət edən, söhbət yoldaşı; müsahib.

*..Bir az zamanda Sona özü üçün həmsöhbət tapıb, gününü gah bağlarda və gah meşələrdə keçirirdi.*

N. Nərimanov.

**HƏMSÜFRƏ** *is.* və *sif.* [*fars.* həm və *ər.* süfrə] Bir süfrədə, bir masa arxasında, bir yerdə yeyib-içənlərdən hər biri; süfrə yoldaşı.

**HƏMTA(Y)** *is.* [*fars.*] Həmyaş, yaşıd, yoldaş, tay.

*Nəçidir şeirdə Bixud sənə həmta olsun.*

S. Ə. Şirvani.

**HƏMZAD** *is.* [*fars.*] 1. Yaşıd, eyniyaşlı. 2. İnsanla birlikdə doğulan ruh, can.

**HƏMZADLI** *is. məh.* Doğandan sonra uşağı ölən qadın.

*Elə arvadlar olur ki, doğduğu uşaq qalmır, ölür. Onda deyirlər ki, bu arvad həmzaddı.*

(Rəvayət).

**HƏMZƏ** *is.* [*ər.*] Ərəb əlifbasında boğazbağlı samit tələffüzünü göstərən işarə. *Ayn və həmzə səslərinin interferensiyası. Daxilində ayn və həmzə səsləri olan ərəb sözlərinin yazılış qaydası.*

*Hələ orta əsr ərəb dilçiləri ərəb dilinin özündə həmzə səsinin söz ortasında və söz qovuşuğunda itməsini göstərirdilər.*

F. Ağasıoğlu.

**HƏMZƏBAN** *is.* [*fars.*] 1. Bir dildə danışan.

*Şıq geyimli bir cəvani-xoşnişan*
*olsaydım, ah!*
*Bu pərilərlə doyunca həmzəban*
*olsaydım, ah.*

M. Ə. Sabir.

2. *məc.* Dilbir, həmfikir.

*O gül mənə bu gecə həmzəban*
*olan gecədir,*
*Deyib, gülüb, danışıb, mehriban*
*olan gecədir.*

Ə. Vahid.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### მეგობრობა (Meqobroba) Dostluq

**მეგობრობა სიტყვების გარეშე გაგება.** (Meqobroba sitqğvebis qareşe qaqeba.) **– Dostluq sözsüz anlaşmaqdır.**

**ნამდვილი მეგობრობა ის გრძნობაა, რომელიც სიტყვებზე მაღლა დგას.** (Namdvili meqobroba is qrdznobaa, romelits sitğvebze mağla dqas.) **– Əsl dostluq, sözlərdən yüksəkdə duran bir hissdir.**

**მეგობარი ისაა, ვინც არ დაგტოვებს მაშინაც კი, როცა არაფერი გაქვს სათქმელი.** (Meqobari isaa, vints ar daqtovebs maşinats ki, rotsa araperi qakvs satkmeli.) **– Dost odur ki, sənin heç nə demədiyin anda da yanındadır.**

**სინამდვილის მეგობრობა ცუდ დღეში ჩანს.** (Sinamdvilis meqobroba tsud dğeşi çans.) **– Həqiqi dostluq pis gündə görünür.**

**მეგობარი ის არაა, ვინც მუდამ გიღიმის, არამედ ვინც არ გშორდება მაშინ, როცა ტირილის დრო დგება.** (Meqobari is araa, vints mudam qiğimis, aramed vints ar qşordeba maşin, rotsa tirilis dro dqeba.) **– Dost o deyil ki, sənə həmişə gülümsəyir, əsl dost odur ki, sən ağladığın anda belə uzaqlaşmır.**

**მეგობრობა ეს არის ნდობა, ერთგულება და პატივისცემა.** (Meqobroba es aris ndoba, ertquleba da pativistsema.) **– Dostluq inam, sədaqət və hörmətdir.**

**ის არ ითხოვს სრულყოფილებას ის იღებს შენ როგორც ხარ.** (İs ar itxovs srulğopilebas is iğebs şen roqorts xar.) **– O, səndən mükəmməllik gözləmir, səni olduğun kimi qəbul edir.**

**მეგობრობა დროის გამოცდას უძლებს.** (Meqobroba drois qamotsdas udzlebs.) **– Dostluq zamanın sınaqlarına davam gətirir.**

**ნამდვილი მეგობრები არ გეკითხებიან, რისთვის ხარ მოწყენილი.** (Namdvili meqobrebi ar qekitxebian, ristvis xar motsğenili.) **– Əsl dostlar sənə niyə kədərlisən deməzlər.**

**ისინი უბრალოდ შენს გვერდით არიან.** (İsini ubralod şens qverdit arian.) **– Onlar sadəcə yanında olurlar.**

**ერთგულება და გულწრფელობა მეგობრობის საძირკველია.** (Ertquleba da qulțsrpeloba meqobrobis sadzirkvelia.) **– Sədaqət və səmimiyyət dostluğun təməlidir.**

**ნუ დაგავიწყდება მეგობრის პოვნა ძნელია, მაგრამ დაკარგვა მარტივი.** (Nu daqavitsğdeba meqobris povna dznelia, maqram dakarqva martivia.) **– Unutma, dost tapmaq çətindir, itirmək isə asan.**

**იყავი ის მეგობარი, ვისაც შენც ენდობი და სხვასაც რწმენას აძლევს.** (İğavi is meqobari, visats şents endobi da sxvasats rtsmenas adzlevs.) **Elə bir dost ol ki, sənə güvənilsin və sən də başqalarına güc verəsən.**

# ŞƏHƏRDƏ QIRĞI NƏ GƏZƏR AXI?!

*Arçil Erqemlidzeyə ithaf olunur*



Dənizin nəfəsi ta oturduğumuz qəhvəxanaya qədər gəlirdi. Nəmli və duzlu hava ağır təsir bağışlayırdı. Açiko ilə dəyirmi masa arxasında əyləşib, qəhvələrimizin dəmlənməsini gözləyir, o ara üskük boydakı xudmani qədəhlərdəki konyakın dadına baxırdıq.

Barmen köçkün bir erməni idi və misdən hazırlanan bapbalaca cəzvələri bişkin hərəkətlərlə qızmış qumun səthində ora-bura gəzdirirdi – sanki hərif bu hərəkətləri hansısa blyuz ritmlərinə uyğun icra edirdi. Ütülmüş bambukdan tikilən bu qəhvəxana çiçəkləyən maqnoliya ağacının kölgəsinə sığınmışdı və özünün yalqız görkəmi etibariylə də bura dincəlməyə gələn, qəhvə içməkdən ötrü qısa müddətə sahilə çıxan birisini xatırladırdı. Əlindəki cəzvəylə bizə yanaşan barmen fincanlarımızı ağızbaağız qəhvə ilə doldurdu. Köpüyün yatmasını gözləmədən mən fincandan ilk qurtumu alarkən, qəhvənin bihuşedici ətrini də ciyərlərimə çəkdim.

Öz fincanını tələm-tələsik masaya qoyan Açiko heyrətlə soruşdu:

– Deyəsən sənin qırtlağın qalaylanıb ha?

Bir az susub, xoş ovqatla dedim:

– Bizim Batumidəki qədər ləzzətli qəhvəni sən heç harada tapmazsan ha.

– Suxumidəkini də, – deyən Açiko fincanı dodaqlarına aparsa da, qurtum almağa hələlik cürət eləmirdi, eləcə yüksələn buğu acgözlüklə içinə çəkdiyi üçün dərin həzzdən gözləri yumulurdu.

Açikonun başı məzələnməyə qarışdığı həmin dəqiqələrdə mən öz qəhvəmi içib bitirdim və qəhvə çöküntüsünə əsasən fala baxan həvəskarlar kimi fincanımı üzüüstə nəlbəkiyə endirdim.

Açiko soruşdu:

– Bu cür fal açmağı bacarırsan ki?

– Hə, bir balaca.

– Kimdən öyrənmisən bunu?

– Qonşumuz Laladan. O, bu işdə əsl ustadır. Ötən il Kodoriyə balıq ovuna getməzdən öncə falıma baxmışdı. Tapşırmışdı ki, ehtiyatı əldən qoyma, rastına bir ilan çıxacaq.

Açiko uğunub getdi:

– Çaya balıq tutmağa gedən birisinin rastına ilan çıxar da. Bunda fal açılası nə var axı?!

– Orada nə olub-bitdiyini onda qoy sənə danışım.

Əlini havada yelləyərək dedi:

– Yaxşı, danış gəlsin!

– Elə ilk dəfə toru sudan çəkəndə gözüm metrə yarımlıq liana sataşdı…

O, sözümü kəsdi:

– Goplama görüm!

– Anam canı!

Açiko heyrətlə uzun bir fit çaldı.

– Sonra bir kərə də falıma baxdı.

– Bəs onda nə çıxdı?

– Dedi ki, səni kiminsə məzarının başında diz çökən görürəm, əlində də çiçək dəstəsi tutubsan…

– Bəs sonra nə baş verdi?

– Səhəri gün Qulda vəfat elədi.

– Hə-ə!.. – deyən Açikonun fincan tutan əli havada donub, qaldı.

– Həmin günün axşamı Lala mənə başsağlığı verməyə gəldi… hönkürərək dedi ki, mən sarsaq, mən kütbaş dünən… sənin falına baxanda o cür nəhs ehtimalları gərək dilimə gətirməyəydim…

Açiko:

– Boş şeydir, canım, bu – sırf təsadüf imiş… – deyib, fikrə daldı.

– Ola bilər. Ancaq həmin gündən bəri mən bir daha nə öz falıma baxdım, nə də baxdırdım.

– Boş şeylərdir, – deyən Açiko öz fincanını ağzıüstə masaya endirdi.

Heç nə demədən konyakımdan bir qurtum aldım.

Bir qədər sonra Açiko:

– Barı mənim qəhvəmin çöküntüsünə bir baxsana, – deyib, öz fincanını mənə uzatdı.

Fincanı əlimə alıb, gözdən keçirdim. Onun dibində qalın bir çöküntü vardı, yan divarlarda isə cürbəcür, həm də sirli naxış və heroqliflər gözə dəyirdi.

– Bunlardan heç baş çıxara bilmədim, – deyə, fincanı ona qaytardım.

O isə məni cırnatmağa çalışdı:

– Haydı, canım, göstərsənə məharətini.

– Orada nəhs şeylər görürəm, – dedim.

Amma o, yaxamdan əl çəkmədi:

– Yenə də de: nə görürsən ey axı?

– Dəniz görürəm. Dəniz və gəmi var orada…

O, güldü:

– Bəs kapitan necə?

– Bir dənə də quş görürəm.

Dostum təkrar irişdi:

– Bəlkə təyyarədir o?

– Yox, bundan artığını görəmmirəm, – deyib, fincanı geri verdim.

Qəhvəxananın yola baxan tərəfinə, sırf ərazi ayrılsın deyə, məftildən çəpər çəkilmişdi. Qəflətən həmin məftillərə bir sərçə qondu. Bizi süzən quş: "Cük-cürük!" – elədi.

– Bax, sənin falın doğru çıxdı, quşumuz özünü yetirdi, indi qalır gəmi kapitanımız, – deyən Açiko mənimlə məzələnməyə başladı.

Bizə uzun-uzadı göz qoyandan sonra sərçə tüklərini qabardıb pırpızlandı, sonra möhkəmcə silkindi, bunun ardınca isə tel çəpərdən uçaraq, düz gəlib bizim masanın üstünə qondu. Açiko heyrətləndi:

– Əcəb də sırtıqmış ha bu.

Süfrədəki çörək qırıntısına tərəf cuman sərçə onu dimdiyinə almağa cəhd göstərdi. Kiçicik pəncəsi və dırnaqları masanın plastik örtüyü üzərində sürüşdüyündən quşun davranışları adama məzəli görünürdü. Uzun-uzadı əlləşdikdən sonra, ən nəhayət, quşcuğaz həmin tikəni dimdiyinə ala bildi və pırıltıyla uçaraq, təkrar gedib, tel çəpərə qondu. Orada oturduğu anlarda da o, qənimətini dimdiyində tutmaqla, yenə bir ara bizə tamaşa elədi, sonra isə qanadlarını açaraq, harayasa uçub getdi.

Baxışlarından heyrət ifadəsi yağan Açiko dedi:

– Gördün də, o "quldur" bizi gözgörəsi necə soyubtaladı?

– Əslində sərçə rusların ona verdiyi "vorobey" adını heyrətamiz bir şəkildə doğrultdu.

– Bunun heyrətamizliyi nədədir ki?

– "Vora bey" nədir, anlamırsan yoxsa?

– Qoy oturmuşuq, sən Allah, yəqin bunu indicə özündən uydurdun, – deyə Açiko biganəliklə cavab verdi.

– Bu adı o bic quşa mən yox ey, ruslar yaraşdırıblar.

(Qeyd: Rusca bu quşun adı "vora (oğrunu) + bey (vur, qov)" sözlərinin birləşməsindən yaranıbdır – A.Y.)

O, gülümsəyərək razılaşdı:

– Əslinə qalanda, hə, bu adı o, tamamən doğruldur.

Sonra sevincək halda:

– Bax hələ, o, təkrar geri döndü! – deyən Açiko daha bir çörək qırıntısını masanın kənarına itələdi. Ancaq bu səfər sərçə çörəyə yaxın gəlmədi, başını yana əyərək, məftilin üstə oturmağına davam elədi və bizi maraqla, şux tərzdə süzməyə başladı. Ara-sıra: "Cük-cürük" səsləri çıxarmaqla, hələ ora-bura qonmağından da qalmadı.

Açiko tam ciddiyyətlə dedi:

– Mərc gələrəm ki, o quş gürcü dilini bilir və danışıqlarımızı dinləyir.

Açikoya xəbərdarlıq babında:

– Bax ha, ağzından sirr-zad qaçırmayasan, birdən o quş türk casusu çıxar, – deyib, ürəkdən qəhqəhə çəkdim.

– Sən elə zarafat elə: bax, necə diqqətlə dinləyir bizi.

Həqiqətən də, sərçə özünü qəribə aparırdı. Başını yana doğru necə əyirdisə, bir qulağı mütləq bizə tərəf yönəlirdi.

Ona acıqlanan Açiko əlini havada yellədi:

– Kiş, kiş buradan, sözgəzdirən quş!

Ancaq quş yerindən heç qımıldanmadı da. Bunu görən Açiko ona müraciətlə dedi:



– Bəlkə canınız nəsə çəkir, cənab sərçə?

Sərçə buna da bir cavab vermədi.

– Oh, elə isə bura təşrif buyurun! – deyib, Açiko əlayağa düşdü və öz fincanını torpağın üstünə qoydu.

*(Davamı növbəti sayımızda)*

***Tərcümə etdi:* Azad YAŞAR**

*KEÇMİŞİMİZƏ EHTİRAMLA*

# UNUTMAYAQ Kİ, UNUDULMAYAQ

Haqqında yazdığım insan öz dövründə bölgənin tanınmış, el - obanın qayğısı, səadəti, Vətənin və xalqın firavan yaşaması uğrunda tutduğu vəzifələrin layiqincə öhdəsindən gəlmiş, verilən planları vaxtında, artıqlaması ilə yerinə yetirmişdir. Vaxtilə özünün dediyi kimi: "Mən özümün deyil, izimin qalması üçün canımı el, xalq yolunda fəda edirəm". O, yaşadığı dövr və mühitin tələblərinə insanlıq naminə vicdanla yanaşmış, onu şərəflə yerinə yetirmişdir. Bu onun yüksək amalı və məqsədi idi. Bu yazı rəhmətlik atamla anama, Qasım əmimlə Xanım büvümün ruhlarına, doğma-əzizlərinə olan dərin hörmət və ehtiram göstərməyimdən, Sevgi bəslədiyimdən yazılır. Sevgi ən ali, ən yüksək və ən müqəddəs hissdir. Uzun illərdir davam edən bu Sevgi hər iki ailənin yüksək insani keyfiyyətləri, əxlaqi dəyərləri üzərində qurulmuşdur. Qasım İsmayıl oğlu İsmayılov 1911-ci ildə Tiflis quberniyasının Borçalı qəzasının Bolus-Kəpənəkçi kəndində anadan olub. 1925-ci ildə 9-cu sinfi bitirdikdən sonra məktəb və kənd soveti rəhbərlərinin birgə təkidilə Qasm İsmayılovu peşə təhsili almaq üçün Ağbulaq (Tetritskaro) rayonunun Məngilisi kəndindəki peşə məktəbinə göndərirlər.1931-ci ildə Fəhlə-Gənclər məktəbini bitirir. 1931-ci ildə Kəpənəkçi kolxozuna (kolllektiv təsərrüfata) sədr seçilir. 1941-ci ildə SSRİ ordusunun tərkibində faşist Almaniyasına qarşı müharibədə qəhrəmancasına döyüşüb. 1943-cü ildə ağır yaralanır və ordudan tərxis olunub doğma Kəpənəkçi kəndinə qayıdır. Təşkilatçılıq qabiliyyəti ilə seçilən Qasım İsmayılov 1943-1947-ci illərdə Kəpənəkçi kəndində kolxoz sədri vəzifəsində, 1948-ci ildən 1950-ci ilədək rayonun Sarallar kəndində kolxoz sədri, 1951-ci ildən 1954-cü ilədək rayonun birləşmiş Dəllər (Muşevan), Qaratikən və Sarallar kəndlərinə kolxoz sədri vəzifəsinə, 1955-ci ildən 1958-ci ilədək Kəpənəkçi kəndinin poçt idarəsinə rəis, 1958-ci ildən 1961-ci ilədək Kəpənəkçi kolxozuna sədir, 1961-ci ildən 1971-ci ilədək



Kəpənəkçi kənd sovetinin sədri vəzifəsinə təyin edilir. Qasım İsmayılov 1971-ci ilin may ayının 1-də vəfat edib. Qasım İsmayılovun atası İsmayıl kişi 18 yaşında: 1888-ci ildə Cənubi Azərbaycanın Xoy vilayətindən gəlib Kəpənəkçi kəndində məskunlaşıb və ailə qurub. İsmayıl kişinin oğlu gənc Qasım ağıllı, cəsarətli, işgüzar, mərhəmətli və ailəcanlı gənc idi. Onun Kəpənəkçi kənd sakini Xanım adlı qızla nigahından Məsim, Ovçu və Vidadi adlı üç oğlu, Pakizər və Sinazər adlı iki qızı olub. Qasım əminin Pakizər qızından başqa, qalan övladları hazırda Rusiyada, Gürcüstan və Azərbaycanda yaşayırlar. Qasım əminin həyat yoluna nəzər salanda, hiss olunur ki, ömrü boyu rəhbər vəzifələrdə işləyib. Sovet imperiyasının rəhbərləri bütün sahələrdə həmişə müsəlmanlara, o cümlədən, azərbaycan türklərinə qarşı ayrı-seçkilik siyasəti yeridib, dinimiz və dilimizə qarşı amansız və qəddar olub. Qasım əmim 1947-ci ilin payızında, Kəpənəkçidə kolxoz sədri işləyən zaman, xalqımızın milli adət-ənənəsinə uyğun olaraq oğluna sünnət çaldırdığına görə onun məsələsinə rayon partiya bürosunda baxılıb və iclasın qərarı ilə partiya sıralarından saxlanmaqla, o, vəzifədən azad edilib. Bolnisi rayon partiya bürosu Qasım İsmayılovu 1951-ci ildə rayonun Dəllər (Muşevan), Qaratikən və Sarallar kəndlərinə kolxoz sədri təyin edib. Qasım əminin atamla dostluq əlaqəsi olduğundan kəndimizə rəhbər təyin olunandan sonra ailəliklə bizim evə köçüblər. Lələmgillə (Məhəmməd əmimə lələ deyə müraciət edirdik) həyətimiz bir idi. O zaman kənddə 3-4 ikimərtəbəli evlərdən biri də bizim ev idi. Qasım əmimgilin 6 nəfərlik ailəsi ikinci mərtəbədə, bizim 7 nəfərlik ailəmiz isə birinci mərtəbədə yaşadı. Doğma qardaş-bacı ailəsi kimi yaşadıq. Dar həyətdə üç ailənin 15 uşağı birgə oynayırdı. Dörd il ərzində bir dəfə də olsun uşaqlar arasında narazılıq, "dava - dalaş" olmadı. Hamımız doğma qardaş-bacı kimi sevinə - sevinə, güləgülə oynayır, "can deyib, can eşidirdik". Bu münasibətimiz üç ailənin böyüklərinin bir - birinə olan səmimi və mehribanlığından irəli gəlirdi. Hamımızdan böyük Qasım əminin oğlu Məsim (uzun müddət Kəpənəkçi 1 saylı orta məktəbində direktor işləyib) idi. Qasım əminin rəhbərliyi dövründə kolxoz kənd təsərrüfatı, maldarlıq, üzümçülük və tütünçülük sahələrində həmişə planı artıqlaması ilə yerinə yetirdiyinə görə o, kəndlərin problemlərinin həlli məsələlərini rayon rəhbərliyi qarşısında qaldırır. Dəllər-Sarallar arasındakı "Kəkilli dağı"ndan salınmış dolama yol genişlənir. Keçən əsrin 50-ci illərində Maşavera (Cavalan) çayını keçmək üçün çayın üzərində ağacdan salınmış körpünü keçən kənd sakini yıxılır və faciəli surətdə həlak olur. Qasım əmi körpü məsələsini də rayon rəhbərliyi qarşısında qaldırır və qısa zamanda böyük və geniş körpü salınır. 1955 - ci ildə rəhbərliyin Qasım əmimi Kəpənəkçi kəndinə poçt rəisi təyin etməsi, dördillik, şən və qayğısız uşaqlıq illərimizin başa çatması ilə nəticələndi. Biz, 15 nəfər bir-birimizə o qədər öyrəşmişdik ki, Qasım əminin uşaqlarının ayrılıb getməsinə bir müddət dözə bilmədik, içimizdə bir xiffət hissləri kök saldı... O vaxtdan 75 il ötsə də, görüşəndə doğma - əzizlər kimi görüşür, hal-əhval tutur, xeyir - şər işlərimizə şərik oluruq. Böyüklərimizin açdığı izi otbitməz yola çevirmiş, övladlarımızın bir-birinə qaynayıb - qarışmasına şərait və imkan yaradırıq. "Unutmayaq ki, unudulmayaq!"

**Əlixan Yəhyaoğlu,**
**Şair-publisist.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




**11 iyul**

• 1576—İngilis kaper (dövlətin icazəsi ilə düşmən dövlətə qarşı dəniz quldurluğu fəaliyyətində olan şəxs) Martin Frobişer (1535 – 1594) şimal qütbünə səyahəti çərçivəsində Qrenlandiyanın ən cənub nöqtəsi Farvel burnuna çatıb, lakin hava şərtləri səbəbilə sahilə enməyib.

•1700—Alman filosof və riyaziyyatçı Qotfrid Leibnitsin iştirakı ilə Prussiya krallığının paytaxtı Berlində Prussiya Kral Elmlər Akademiyası yaradılıb. 1946-cı ildə Akademiyanın əsasında Almaniya Demokratik Respublikasının Elmlər Akademiyası açılıb. Hazırda 1992-ci ildə yaradılan Berlin-Brandenburq Elmlər Akademiyası Prussiya Elmlər Akademiyasının elmi ənənələrinin davamçısı hesab olunur.

•1918 — **Abbas Səhhət, Azərbaycan şairi, vəfat edib.**

•Avropa İttifaqında Bosniya müharibəsi çərçivəsində (1992 – 1995-ci illər) serblər tərəfindən qətlə yetirilmiş Srebrenitsa şəhərinin müsəlman əhalisinin anım günü qeyd edilir.

**12 iyul**

•1862 — ABŞ-nin yüksək hərbi mükafatı Şərəf Medalı təsis edilib. Medal "Birləşmiş Ştatların düşmənlərinə qarşı fəaliyyətdə öz həyatını riskə ataraq, vəzifə borcunu yerinə yetirərkən gözə çarpan cəsarətə görə, eləcə də müxalif xarici qüvvələrlə münaqişə zamanı keçirilən hərbi əməliyyatlar zamanı verilir.

•İran İslam Respublikasında Hicab və İffət Günü qeyd edilir. Bayram 1979-cu ildə İslam inqilabının qələbəsindən sonra Mədəniyyət Şurası tərəfindən təsis edilib.

**13 iyul**

• 1841 — Avstriya imperiyası, Fransa, İngiltərə, Prussiya, Rus imperiyası və Osmanlı imperiyası Londonda sülh dövründə xarici dövlətlərin hərbi gəmilərinin Bosfor və Dardanel boğazlarına daxil olmasını qadağan edən Boğazlar haqqında London konvensiyası imzalayıb. Qeyd edək ki, günümüzdə sözügedən boğazlar üzərində Türkiyənin suverenliyi 1936-cı ildə imzalanan Montrö Konvensiyası ilə tənzimlənir.

•2018 — Yeni Zelandiya alimləri Cenevrədə üçölçülü rəngli şəkil çəkə bilən ilk rentgen aparatını təqdim ediblər. Avropa Nüvə Tədqiqatları Təşkilatı bildirib ki, cihazın unikallığı Böyük Adron Kollayderi üçün hazırlanmış texnologiya ilə bağlı olub.

**14 iyul**

•1928 — **Nodar Dumbadze, gürcü yazıçı, anadan olub.**

•1958 — İraqda bir qrup hərbi zabitin rəhbərliyi ilə hərbi çevriliş baş verib. Nəticədə Haşimi xanədanının son nümayəndəsi olan kral II Feysal ibn Qazi devrilib və ölkə respublika elan edilib.

•**İraqda yuxarıdaq qeyd etdiyimiz hərbi çevriliş münasibətilə Respublika Günü qeyd edilir.**

**15 iyul**

•1795 —Hərbi mühəndis Klod Jozef Ruje de Lil tərəfindən yazılan və Böyük Fransız İnqilabının marşı olan "Marselyeza" Fransa Respublikasının rəsmi himni kimi qəbul edilib.

•1965 —ABŞ Konqresi siqaret qutularının üzərində siqaretin təhlükələri haqqında xəbərdarlıq yazılmasını tələb edən qanun qəbul edib.

**16 iyul**

•1643 — Hollandiyalı səyyah Martin Qeritson de Friz Cakarta şəhərindən "Kastrikum" gəmisi ilə dənizə çıxaraq, Saxalin və Kuril adalarını kəşf edib.

•1819 — Rus səyyahlar F. F. Bellinqshauzen və M. P. Lazarevin komandanlığı ilə Sankt-Peterburq şəhərindən "Vostok" və "Mirnı" gəmilərinin dünya miqyasında ekspedisiyası başlayıb. Təqribən bir il sonra, 1820-ci ildə ekspedisiya dünyanın altıncı qitəsi Antarktidanı kəşf edib.

•1945—Manhetten Layihəsi - Nüvə dövrü Nyu Meksikada ABŞ tərəfindən tarixdə ilk dəfə eksperimental plutonium nüvə silahının partladılması ilə başlayıb.

**17 iyul**

•1453 —İngiltərə və Fransa arasında 1337 – 1453-cü illərdə gedən "Yüzillik müharibə"nin son döyüşü olan Kastion döyüşü baş verib. Döyüş fransızların qələbəsi və nəticədə ingilis idarəçiliyi altındakı fransız şəhəri Bordonun fransızlar tərəfindən geri alınması ilə nəticələnib.

•1907 —Sankt-Peterburqda Rusiyanın xarici işlər naziri A. P. İzvolski və Yaponiyanın Rusiyadakı səfiri Motono tərəfindən rus-yapon müqaviləsi imzalanıb; maraq dairəsinin tanınması kimi maddələr olub.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## NODAR DUMBADZE



***Nodar Dumbadze 14 iyul 1928-ci ildə Tbilisidə anadan olub.*** Atası Vladimir Dumbadze Gürcüstan Kommunist Partiyasının Mayakovski (Bağdati) rayon komitəsinin birinci katibi, anası Ana Baxtadze isə evdar qadın olub. 1937-ci ildə atası edam olunub, anası isə sürgün edilib. Nodar ibtidai təhsilini Tbilisidəki 15 nömrəli məktəbdə alıb, lakin məktəbi bitirməyib. Nodar 8 yaşında olanda xalaları onu Abxaziyaya göndərib. Orada Nodarı nənəsi böyüdüb. 1945-ci il Nodar Çoxatauri rayonunun Xidistavi kənd orta məktəbini bitirib və təhsilini davam etdirmək üçün Tbilisiyə qayıdıb. 1950-ci ildə Tbilisi Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirib və həmin Universitetin laboratoriyasında işləyib. Yaradıcılıq fəaliyyətinə də universitetdə işlədiyi dövrdə başlayıb. 1950-ci ildən başlayaraq şeirləri və yumoristik heykayələri mətbuatda müntəzəm olaraq dərc olunub. 1956–1957 illərdə Nodar Dumbadze üç cilddə yumoristik hekayələr toplusunu nəşr etdirib. 1957-ci ildə Universitetdəki işini buraxıb və yaradıcılıqla məşğul olub. 1975-ci ildə roman və hekayələrinə görə Rustaveli mükafatına, 1980-ci ildə isə Lenin mükafatına layiq görülüb.

Nodar Dumbadzenin məşhur romanları "Mən, nənəm, İliko və İlarion", "Günəşi görürəm", "Günəşli gecə", "Qorxma, ana!", "Ağ bayraqlar" və "Əbədiyyət qanunu"dur. Ədibin əsərləri rus, ukrayn, moldav, erməni, azərbaycan, ingilis, alman, ispan, polyak, yapon , türk, ərəb və başqa dillərə tərcümə edilib. Dumbadzenin Azərbaycan dilinə tərcümə edilmiş əsərləri "Kukaraça", "Mən, nənəm, İliko və İlarion", "Günəşi görürəm", "Ağ bayraqlar" və "Xatirələr işığında"dır.

Nodar Dumbadze 4 sentyabr 1984-cü ildə Tbilisidə vəfat edib. Əvvəlcə Tbilisi Mziuri parkında dəfn edilib. 2009-cu ildə məzarı Mtatsminda Yazıçılar və İctimai Xadimlər Panteonuna köçürülüb.

## ABBAS SƏHHƏT



***Ədəbiyyat tarixinə Abbas Səhhət adı ilə düşən Mehdizadə Abbas Əliabbas oğlu 1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya gəlib.*** 1894-cü ildə İranın Məşhəd və Tehran şəhərlərində tibb təhsili alıb. 1901-ci ildə Şamaxıya qayıdaraq bir müddət həkimlik fəaliyyəti göstərib. Daha sonra həkimlik fəaliyyətindən uzaqlaşaraq, məktəblərdə Azərbaycan dilini tədris edib. Bununla birlikdə, ədəbi fəaliyyətə də başlayıb. 1903-cü ildən ədibin məqalələri Şərqi-Rus qəzetində çap olunub. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqalə yazıb, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şeirlərini nəşr edib.

"Yeni üslublu məktəblər" ideyasının tərəfdarı olan Abbas Səhhət, 1906–1907-ci illərdə Azərbaycan romantik ədəbiyyat cərəyanının ünsürü olan "Füyuzat" jurnalında fəaliyyət göstərib.

Abbas Səhhət tərcüməçilik fəaliyyəti ilə də məşğul olaraq, rus ədibləri Lermontov, Puşkin, Krılov, Maksim Qorkinin , fransız ədibləri Hüqo, Müsse, Sülli-Prüdomun, eləcə də alman şair və yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib. 1912-ci ildə şairin öz şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən etdiyi tərcümələrdən ibarət "Qərb günəşi" adlı şeirlər toplusu nəşr edilib. 1916-cı ildə müəllifin "Şair, şeir pərisi və şəhərli" adında romantik poeması nəşr olunub.

Abbas Səhhətin digər əsərləri "Cəhalət səmərəsi yaxud bir yetimin xoşbəxtliyi", 2 pərdədən ibarət komediya əsəri "Kasıblıq eyib deyil", 1 pərdəli komediya əsəri "Neft fontanı", eləcə də XIX – XX əsrlərin məşhur azərbaycanlı pedaqoq-metodist Mahmud bəy Mahmudbəyovla birlikdə yazdığı "Azərbaycan dilinin 3 illik tədrisi üçün dərslik"dir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunub.

Abbas Səhhət 11 iyul 1918-ci ildə Gəncədə vəfat edib.

## İRAQ




***İraq Asiyanın qərbində, Yaxın Şərqdə, bəşər mədəniyyətinin başlanğıc yeri olan Mesopotamiya regionunda yerləşən ərəb dövlətidir.*** Şimalda Türkiyə, şərqdə İran, cənubda Küveyt və Səudiyyə Ərəbistanı, qərbdə Suriya və İordaniya Krallığı ilə həmsərhəddir. Cənub-şərqdən Fars Körfəzinə çıxışı var. Paytaxtı vaxtilə İslam mədəniyyətinin siyasi və elmi mərkəzi olan Bağdad şəhəridir. Böyük şəhərləri Mosul, Ərbil, Kərkük, şiələr üçün müqəddəs Nəcəf və Kərbəladır. İraqın əhalisinin sayı 46 400 000 nəfərdir. Ölkənin rəsmi dilləri ərəb və kürd dilləridir. Ərazisi 437 072 kv.km-dir.

**Tarixi:** Qədimdə İraq ərazisində, Mesopotamiyada ilk bəşər mədəniyyəti olan şumer şəhər-dövlətləri, Babil krallığı və bəşər tarixinin ilk imperiyası olan Assuriya yerləşib. Eramızdan əvvəl VI əsrdə bu ərazi Fars Əhəmənilər dövlətinin tərkibinə daxil edilib. E. Ə. IV əsrdə Fars imperiyasının Makedoniyalı İsgəndər tərəfindən məğlub edilməsi ilə ərazi Yunan-Makedoniya imperiyasının idarəçiliyinə keçib. E. ə. III əsrdən yeni eranın III əsrinə qədər İran ərazisində yaranan Parfiya dövlətinin, sonra isə Sasani İran imperiyasının tərkib hissəsi olub. VII əsrdə Sasani dövlətinin süqutundan sonra İslam Xilafətinin tərkibinə girib. Qeyd edək ki, dördüncü Raşidi xəlifə Hz. Əlinin paytaxtı İraqın Kufə (indiki Nəcəf) şəhəri olub. İslam tarixinin ən böyük faciəsi olan və İmam Hüseynin qətlə yetirilməsi ilə nəticələnən Kərbəla döyüşü də İraqda baş verib. VIII – XIII əsrlərdə Abbasilərin paytaxtı olan Bağdad o dövrün mədəniyyət və elm mərkəzlərindən biri olub. XVI-XX əsrlərdə İraq Osmanlı İmperiyasının tərkibində olub. Birinci Dünya müharibəsində Osmanlının məğlubiyyətindən və süqutundan sonra ölkə 1921 – 1932 illərdə ingilislər tərəfindən işğal edilib. 1932-ci ildə ölkə müstəqil krallıq olub. 14 iyul 1958-ci ildə baş vermiş hərbi çevriliş nəticəsində İraqda monarxiya devrilib və ölkə respublika olub.

Müasir İraq tarixinin ən ağır dövrü Səddam Hüseynin başçılıq etdiyi "Bəəs" rejiminin hakimiyyət dövrü olub. Bu dövrdə ölkə əvvəlcə iqtisadi baxımdan inkişaf edsə də, 1980-1988-ci illərdə baş vermiş İran-İraq müharibəsi, 1991-ci ildə İraqın qonşu Küveyti işğal etməsi ilə başlayan Körfəz müharibəsi və 2003-cü ildə ölkənin ABŞ-nin rəhbərlik etdiyi koalisiya tərəfindən işğal edilməsi nəticəsində ağır iqtisadi və demoqrafik zərbə alıb, etnik və dini baxımdan parçalanıb. Parçalanmanın ən ağır nəticələrindən biri 2014-2017-ci illərdəki İŞİD (İraq Şam İslam Dövləti) terror təşkilatının ölkənin böyük hissəsini işğal etməsi olub. Qeyd edək ki, İŞİD tamamilə 2017-ci ildə məğlub edilib.

**Coğrafiyası:** Relyefinə görə İraq, əsasən düzənlik ölkədir. Dəclə və Fərat çaylarının orta axarında yerləşən ərazinin səthi dərə-təpəlikdir. Ölkənin şimal və şimal-şərq hissəsi çətin keçilən dağlıq, qərb hissəsi isə səhra tipli relyefə malikdir.

**İqtisadiyyatı:** İraqın pul vahidi dinardır. İraq iqtisadiyyatı neft hasilatı və ixracına əsaslanır: bu gün neft sektoru ölkənin valyuta gəlirlərinin təxminən 99,7 faizini təmin edir. 2017-ci ildə İraq 60,8 milyard dollarlıq mal ixrac edib, 29,7 milyard dollarlıq malı isə idxal edib. Əsas ixrac malları xam neft, neft məhsulları, qızıl, təbii qaz və xurmadır. Əsas idxal malları zərgərlik məmulatları, dərmanlar, quş əti, avtomobillər və qızıldır. İraqın əsas ticarət tərəfdaşları Hindistan, Çin, ABŞ, Cənubi Koreya, Yunanıstan, Türkiyə, Çin, Cənubi Koreya, Hindistan və Braziliyadır.

**Dövlət quruluşu:** 2005-ci il konstitusiyasına görə, İraq İraq xalqının üç əsas etnik-dini icmasının: şiə ərəblər, sünni ərəblər və kürdlərin konsensusuna əsaslanan federativ parlament respublikasıdır. İraq Milli Assambleyası (İraq parlamenti) partiya siyahıları ilə seçilən 325 yerlik Nümayəndələr Şurasından ibarətdir. Hökumət (nazirlər kabineti) parlamentin ən böyük fraksiyasından formalaşır və ona baş nazir rəhbərlik edir.

**Elm və təhsil:** IX – XIII əsrlərdə Bağdad o zamankı elm, təhsil və mədəniyyət mərkəzlərindən biri idi. İraqda ibtidai və orta təhsil dövrü birlikdə 12 ildir: 6 illik ibtidai təhsil və 6 illik orta təhsil. İraqda dövlət, özəl, beynəlxalq və dini məktəblər də daxil olmaqla müxtəlif tipli məktəblər var. Dövlət məktəblərində təhsil pulsuzdur.



GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"SAKARTVELO"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



TƏQDİMAT

## SALİDƏ ŞƏRİFOVANIN "LEYLA ƏLİYEVANIN POETİK DÜNYASI" KİTABININ TƏQDİMATI KEÇİRİLİB




2025-ci il iyunun 30-da tanınmış ədəbiyyatşünas alim, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi, AMEA-nın professoru, filologiya elmləri doktoru Salidə Şərifovanın "LEYLA ƏLİYEVANIN POETİK DÜNYASI" adlı kitabının təqdimat mərasimi keçirilib.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda baş tutan tədbirdə AMEA-nın rəhbərliyi, AYB-nin əməkdaşları, elm, mədəniyyət və incəsənət xadimləri, tanınmış alimlər, ziyalılar, şairlər, yazıçılar, media nümayəndələri, müəllifin həmkarları, tələbə yoldaşları və başqaları iştirak ediblər.

Leyla Əliyevanın poeziyasını hərtərəfli araşdırma predmetinə çevirən S.Şərifova onun fəlsəfəsi, obrazlar sistemi, bədii təsvir, dil-üslub xüsusiyyətləri, müxtəlif dillərə tərcümələri barədə müasir dünya filologiyası səviyyəsində söz deməyə nail olub.

Tədbirin sonunda müəllif Salidə Şərifova tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

"Sənətkarın elmi pasportu seriyası"nın 51-ci nəşri olan monoqrafiyanın rəyçiləri Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Məmməd Əliyev, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Vüqar Əhməd və Azərbaycan Texniki Universitetinin "Ziya" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Müşfiq Çobanovdur.

MƏDƏNİYYƏT

## TÜRKAN ŞORAY BUNA GÖRƏ EKRANLARA ÇIXMIR



***Uzun müddətdir seriallarda rol almayan məşhur türkiyəli aktrisa Türkan Şoray bunun səbəbini açıqlayıb.***

İstanbulda Türkan Şorayın həyatından bəhs edən "Türkan və Həyat" kitabının təqdimat mərasimi keçirilib. Sənətçi uzun illər birlikdə çalışdığı Bircan Usallı Silanın yazdığı kitab üçün keçirilən tədbirdə iştirak edib.

Tədbirdə jurnalistlərə verdiyi açıqlamada seriala çəkilməməsinin səbəbindən danışıb: *"Seriallarda həmişə çox gənc aktyorlar oynayır. 25 yaşından sonra artıq uşaqlı qadın rolları canlandırılır. Müəyyən yaşdan sonra ikinci, üçüncü və dördüncü fon rolları daha çox olur. Onları da oynamaq istəmirəm. Məni olduğum kimi sevən tamaşaçımı məyus edəcəyəm?"*

Sultan ləqəbli Şoray açıqlaması zamanı çox az film çəkildiyini də vurğulayıb: *"Təəssüf ki, çox az film çəkilir. Seriallar daha çox gündəmdədir. Mən də "Tatlı Hayat" və "İkinci Bahar" kimi seriallara çəkildim. Yaşıma uyğun rollar idi. İndi bir qadının sosial problemindən bəhs edən film olsa, istəyərəm. Belə bir hekayə gəlmir. Ssenari yazarlarımız yoxdur".*

Aktrisa *"Həyatınızın kino olmasını istərdinizmi?"* sualına *"Öləndən sonra olar, indi bu haqda düşünmürəm"* - deyə cavab verib.

HADİSƏ

## ACARISTAN HÖKUMƏTİNİN KEÇMİŞ SƏDRİ MƏKTUB YAZIB VƏ ÖZÜNƏ QƏSD EDİB



***Acarıstan Muxtar Respublikası hökumətinin keçmiş sədri Tornike Rijvadze xəstəxanaya yerləşdirilib.***

Məlumata görə, o, gecə saatlarında özünə qəsd edib.

Keçmiş yüksək vəzifəli şəxs Dəniz Nəqliyyatı Agentliyinin rəhbəri Aleksi Axvledianiyə məxsus silahdan iki dəfə atəş açıb.

Daxili İşlər Nazirliyinin məlumatına görə, Tornike Rijvadze döş qəfəsindən aldığı güllə yarası ilə Saqareco Geohospitalına yerləşdirilib.

Agentliyin məlumatına görə, Tornike Rijvadzeyə təcili tibbi yardım göstərilib, sonra Birinci Universitet Klinikasına, daha sonra isə müalicə üçün Türkiyəyə göndərilib.

Faktla bağlı Daxili İşlər Nazirliyində Cinayət Məcəlləsinin 115-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə araşdırma başlayıb.

Qeyd edək ki, Tornike Rijvadze 4 aprel tarixində Acarıstan hökumətinin sədri postunu tərk etmişdi.

BAŞSAĞLIĞI

Azərbaycan İnşaat Universitetinin sənaye və mülki tikinti fakültəsinin 281 $a_1$ qrupunun 1977-ci il məzunları tələbə yoldaşı

**İbad Barat oğlu Əliyevin**

faciəli şəkildə həlak olması ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## TARİXİN CANLI ÜZÜ



Foto E.Şahvələdindir.

ARAŞDIRMA

## KİŞİLƏR VƏ QADINLAR ÜÇÜN KRİTİK YAŞ DÖVRÜ NƏ VAXT BAŞLAYIR?

***Sağlamlığa erkən yaşlardan diqqət göstərmək xroniki xəstəliklərin qarşısını almaq və aktiv qalmaq üçün vacibdir.***

Texas Sağlamlıq Mərkəzi və Helsinki Universitet Xəstəxanasının birgə araşdırmasına görə, kişilər üçün ən riskli dövr 40-60 yaş aralığıdır. Bu yaşlarda ürək-damar xəstəlikləri, nevroloji pozuntular və autoimmun əlamətlər üzə çıxır. Qadınlarda sağlamlıqla bağlı dəyişikliklər 30 yaşdan sonra başlayır və bu, estrogen səviyyəsinin azalması və hormonal dəyişikliklərlə əlaqədardır. Nəticədə osteoporoz, metabolik pozuntular və bəzi xərçəngə qədərki hallar yarana bilər.

Profilaktik tibbi müayinələr hər iki cins üçün bu dövrlərdə xüsusi əhəmiyyət daşıyır. Kişilər 40 yaşdan sonra qan təzyiqi, nəbz, şəkər və xolesterin səviyyəsini izləməli, ürək fəaliyyətinə və yorğunluq, baş ağrısı kimi əlamətlərə diqqət yetirməlidirlər. Qadınlar isə 30 yaşdan sonra hormon analizləri verməli, ginekoloq, endokrinoloq və oftalmoloq müayinələrindən keçməli və sümük sıxlığını yoxlatmalıdırlar.

Uzunömürlülük üçün düzgün qidalanma, fiziki aktivlik, pis vərdişlərdən uzaq durmaq, keyfiyyətli yuxu, stressin idarəsi və çəkiyə nəzarət vacibdir. Rasionda meyvə, tərəvəz sağlam yağlara üstünlük verilməli, şəkər, duz və trans yağlar minimuma endirilməlidir. Həftədə ən azı üç dəfə fiziki aktivlik (yürüş, üzgüçülük, yoqa və s.) tövsiyə olunur. Siqaret və alkoqoldan uzaq durmaq və psixoloji tarazlığı qorumaq sağlam qalmağın əsas şərtlərindəndir.

### ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

### "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayə-nizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürur-la dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslərfərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya **E-mail:Gurcustan_1921@mail.ru** elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzində abunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli - mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

**Müdiriyyət.**

**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.